

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 173 (23.084)

14 sentyabr 2018-ci il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 13-də Bakının Sabunçu rayonunun Nardaran qəsəbəsindəki 295 nömrəli tam orta məktəbdə əsaslı təmirdən sonra yaradılan şəraitlə tanış olub.

* * *

Bakının Sabunçu rayonunun Maştağa qəsəbəsində Cəfər Cabbarlı adına 187 nömrəli tam orta məktəbin binası əsaslı təmir edilib.

Sentyabrın 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu təhsil ocağında əsaslı təmirdən sonra yaradılan şəraitlə tanış olub.

* * *

Dövlətimizin başçısı həmin gün Bakının Sabunçu rayonunun Zabrat qəsəbəsindəki 192 nömrəli tam orta məktəbdə əsaslı təmirdən sonra yaradılan şəraitlə tanış olub.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 13-də İsrail Dövlətinin müdafiə naziri Aviqdor Libermanın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.



# Naxçıvan Tibb Kollecinin binası istifadəyə verilmişdir

Sentyabrın 13-də Naxçıvan Tibb Kollecinin binası əsaslı yenidənqurmadan sonra istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov açılışı bildirən lenti kəsmişdir.

Ali Məclisin Sədri Bilik Günü ərəfəsində Naxçıvan Tibb Kollecinin istifadəyə verilməsi münasibətilə kollektivi təbrik etmiş, ümummilli liderimiz Heydər Əliyevin ***“Səhiyyə xalqımızın sağlamlığı və gələcəyidir”*** fikrini xatırladaraq demişdir: Ümummilli liderimiz Azərbaycana hər iki rəhbərliyi dövründə səhiyyənin inkişafını diqqətdə saxlamışdır. Bu gün ulu öndərin yolunu uğurla davam etdirən ölkə Prezidentinin qayğısı ilə Azərbaycanda səhiyyə sistemi müasir tələblər səviyyəsində qurulub. Bu sahədə kadr hazırlığı yüksək səviyyədə həyata keçirilir. Muxtar respublikamızda da səhiyyənin inkişafı sahəsində







ardıcıl tədbirlər görülür. Hazırda 32 muxtar respublika, şəhər, rayon və kənd sahə xəstəxanaları, mərkəz və dispanserlər, eləcə də 107 feldşer-mama və tibb məntəqəsi, 84 ambulatoriya vasitəsilə əhaliyə səhiyyə xidməti göstərilir. Muxtar respublika, şəhər, rayon və kənd sahə xəstəxanaları, dispanser və mərkəzlər müasir tələblər səviyyəsində qurulub. Ambulatoriyaların 90 faizi, feldşer-mama və tibb məntəqələrinin 95 faizi yeni binalarda yerləşir, əhaliyə müasir səhiyyə xidməti göstərilir.

Ali Məclisin Sədri demişdir: Bu gün muxtar respublikanın səhiyyə müəssisələrində 1290 həkim, 2260-dan artıq orta tibb işçisi ştatı mövcuddur. Səhiyyə müəssisələrinin tibbi kadrlara olan tələbatının ödənilməsi üçün ardıcıl tədbirlər görülür. Naxçıvan Dövlət Universitetində Tibb fakültəsinin yaradılması, Naxçıvan Tibb Kollecinin müasir tələblər səviyyəsində yenidən qurulması, ixtisasların sayının artırılması səhiyyə müəssisələrinin ixtisaslı tibbi kadrlarla təminatına imkan verir. Həmçinin həkimlər və orta tibb işçiləri ixtisasartırma kurslarına göndərilir, onların bilik səviyyəsi və peşəkarlığı artırılır. Artıq muxtar respublikanın səhiyyə sistemi əhalinin sağlamlığının keşiyində durmağa



tam hazır və qadirdir.

Ali Məclisin Sədri buna görə muxtar respublikanın səhiyyə işçilərinə təşəkkürünü bildirərək demişdir: Səhiyyə sahəsində daim yeniliklər tətbiq olunur. Muxtar respublikanın səhiyyə işçiləri də bu yenilikləri öyrənməli və tətbiq etməlidirlər. Səhiyyənin inkişafı üçün birincisi şərait olmalıdır, ikincisi isə ixtisaslı kadrların hazırlanmasına diqqət yetirilməlidir. Muxtar respublikamızda hər iki amil diqqət mərkəzində saxlanılır. Səhiyyə müəssisələrində müasir avadanlıqlar quraşdırılmışdır. Həkim və orta tibb işçilərinin hazırlanmasına xüsusi diqqət yetirilir. Bu tədbirlərin həyata keçirilməsi əhalinin sağlamlığına xidmət etməklə yanaşı, eyni zamanda ölkəmizin gələcəyinə hesablanmışdır. Çünki hansı cəmiyyətdə sağlam insan çoxdursa, o cəmiyyətdə inkişaf davamlı olur. Bu səbəbdən də insan sağlamlığı dövlətimizin qarşısında duran əsas vəzifələrdəndir. Dövlət bu işdə üzərinə düşən vəzifələri yerinə yetirir, müasir səhiyyə müəssisələri tikərək əhalinin istifadəsinə verir. Səhiyyə işçiləri isə yaradılan şəraitdən səmərəli istifadə etməli, sakinlərə nümunəvi xidmət göstərməlidirlər.

Ali Məclisin Sədri demişdir: 1931-ci ildə fəaliyyətə başlayan Naxçıvan Tibb Kolleci şərəfli inkişaf yolu keçmişdir. Kolleci bitirən 8 mindən çox məzun muxtar respublikada əhalinin sağlamlığının keşiyində dayanmışdır. Bu gün də bu iş davam etdirilir. 8 ixtisas üzrə tələbə hazırlığı aparan kollec muxtar respublikamızın orta tibb işçilərinə olan tələbatını tamamilə ödəyəcəkdir. Ona görə də məktəbdə yaradılan şəraitdən səmərəli istifadə olunmalı, tələbələr yüksək səviyyədə hazırlanmalı, tələbkarlıq artırılmalı, praktik dərslərə üstünlük verilməli və nizam-intizama ciddi əməl edilməlidir.

Ali Məclisin Sədri yaradılan şəraitdən səmərəli istifadə olunacağına əminliyini bildirmiş, bir daha kollektivi təbrik etmişdir.

Naxçıvan Tibb Kollecinin direktoru Sona Məmmədova çıxış edərək demişdir ki, yenidənqurma işlərindən sonra kollec müasir tibbi təhsil müəssisəsinə çevrilmişdir. Müəllimlər və tələbələr üçün ən müasir tədris şəraiti yaradılmışdır. Hazırda kollecdə 39 qrupda 8 ixtisas üzrə 702 tələbə təhsil alır. Bu tədris ilində 231 tələbə məzun olmuşdur ki, onlardan da yeddisi fərqlənmə diplomuna layiq görülmüşdür. 2018-2019-cu tədris ilində Naxçıvan Tibb Kollecinə 230-dan çox tələbə qəbul olmuşdur. Hazırda kollecdə 58 müəllim və həkim çalışır. Tələbələrin təcrübi tibbi biliklərinin daha da artırılması istiqamətində tədbirlər görülür, onlar dərsdən sonra muxtar respublikanın səhiyyə müəssisələrində müxtəlif ixtisaslar üzrə təcrübə keçirlər. Hazırda kollecdə elektron təhsil tətbiq olunur.

Ardı 2-ci səhifədə

Yaradılan şərait kollektivin məsuliyyətini daha da artırır. Sona Məmmədova ixtisaslı və peşəkar tibbi kadrların hazırlanması istiqamətində səylərini artıracaqlarını bildirmiş, yaradılan şəraitə görə Naxçıvan Tibb Kollecinin kollektivi adından Ali Məclisin Sədrinə minnətdarlıq etmişdir.

Sonra Ali Məclisin Sədri binada yaradılan şəraitlə maraqlanmışdır.

Məlumat verilmişdir ki, kollecin binası zirzəmi qatı ilə birlikdə 4 mərtəbədən ibarətdir. Yenidənqurma işləri zamanı binanın bünövrəsi möhkəmləndirilmiş, fasadı yenilənmiş, müasir tədris şəraiti yaradılmışdır. Kollecdə kimya, farmakologiya və mikrobiologiya laboratoriyaları, anatomiya-fiziologiya, terapiya, pediatriya və cərrahiyyə kabinələri, müayinə otağı, kitabxana, iclas zalı, 2 kompüter otağı, müəllimlər otağı, Heydər Əliyev lektoriyası, şahmat sinfi, 13 auditoriya və 9 mühazirə zalı, hərbi kabinə, idman zalı, bufet və arxiv vardır. Laboratoriyalar müasir avadanlıqlarla təmin edilmişdir. Auditoriyalarda quraşdırılan elektron lövhə və proyektorlar distant dərslərin keçirilməsinə, o cümlədən elektron dərsliklərdən istifadəyə imkan verir.

Anatomiya-fiziologiya, terapiya, pediatriya və cərrahiyyə kabinələrində nəzəri biliklərin praktik formada möhkəmləndirilməsi üçün



lazımi şərait yaradılmış, tibbi avadanlıqlar qoyulmuşdur. Kitabxana fondunda 1154-ü tibbi və 3683-ü bədii ədəbiyyat olmaqla, 4837 kitab vardır. Həmçinin kollecdə elektron dərslik bazası da yaradılmışdır. Kompüter otaqlarında isə internetə çıxışı olan 48 kompüter qoyulmuş, elektron imtahan proqramı quraşdırılmışdır. Bu da imtahanların elektron formada aparılmasına imkan verəcəkdir.

Kollecin müəllimləri ilə görüşən Ali Məclisin Sədri demişdir: Birlik, nizam-intizam və tələbkarlıq olan təhsil müəssisələrinin nailiyyətləri də çox olur. Ötən dövrdə Naxçıvan Tibb Kolleci uğurlu fəaliyyət göstərmiş və böyük inkişaf yolu keçmişdir. Buranı bitirən məzunlar muxtar respublikada səhiyyənin inkişafına öz töhfələrini verirlər. İxtisaslı tibbi kadrların hazırlanması sahəsində kollecin yaratdığı ənənə Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsinin yaranması üçün əsas verdi. İstər Tibb fakültəsinin, istərsə də kollecin məzunları bu gün muxtar respublikada ən mürəkkəb cərrahi əməliyyatların aparılmasında iştirak edirlər. İnsanlarımıza yaşadıqları yerlərdə hərtərəfli tibbi xidmət göstərilir. Muxtar respublikadakı müasir xəstəxanaların, həkim ambulatoriyalarının və feldşer-mama məntəqələrinin orta tibb işçiləri ilə təminatı Naxçıvan Tibb Kolleci tərəfindən həyata keçirilir. Həkim müayinə edir, təyinat verir, orta tibb işçisi isə müalicəni aparır. Ona görə də kollektiv yaradılan müasir tədris şəraitindən səmərəli istifadə etməli, kadr hazırlığı işi daim diqqətdə saxlanılmalıdır.

Kollecin müəllimi Sahibə Quliyeva yaradılan şəraitə görə müəllimlər və həkimlər adından minnətdarlıq etmiş, qarşıya qoyulan vəzifələri uğurla yerinə yetirəcəklərinə söz vermişdir.

Ali Məclisin Sədri kollecin elektron dərslik fondunun zənginləşdirilməsi, müəllim və tələbələrin təcrübə mübadiləsinin davam etdirilməsi, tədris prosesində qədim tibbi metodların və ənənələrin də öyrədilməsi barədə tapşırıqlar vermişdir.

Binada fərdi qazanxana quraşdırılmış, həyətdə abadlıq işləri aparılmışdır.



## Naxçıvan şəhərindəki tarixi binalar yenidən qurulur

Muxtar respublikada tikinti-quruculuq işləri aparılarkən tarixiliklə müasirlik vəhdətdə götürülür. Naxçıvan şəhərinin qədim arxitekturası və memarlıq quruluşu qorunub saxlanılır. Tarixi binaların yenidən qurulması bu baxımdan mühüm əhəmiyyətə malikdir. Hazırda Naxçıvan şəhərinin Atatürk küçəsindəki 6 nömrəli binada yenidənqurma işləri aparılır.

Sentyabrın 13-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov binada aparılan yenidənqurma işləri ilə tanış olmuşdur.

Məlumat verilmişdir ki, bina zirzəmi ilə birlikdə 3 mərtəbədən ibarətdir. Yenidənqurma işləri aparılarkən binanın tarixi görkəminin və memarlıq quruluşunun saxlanılmasına xüsusi diqqət yetirilir. Tikinti işləri başa çatdıqdan sonra binada Naxçıvan Muxtar Respublikasının Turizm Departamenti və Cəmşid Naxçıvanskinin Ev Muzeyi yerləşəcəkdir. Binanın ətrafında da abadlıq işləri aparılacaq, yeni park salınacaqdır. Parkda Naxçıvan Muxtar Respublikasının turizm marşrutlarının xəritəsini və tarixi abidələrinin görüntülərini əks etdirən stendlər qoyulacaqdır.

Ali Məclisin Sədri binada tikinti işlərinin keyfiyyətlə aparılması, həmin küçədəki 8 nömrəli binanın da layihələndirilməsi və yenidən qurulması barədə tapşırıqlar vermişdir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

## Təhsilin inkişafı daim dövlətimizin diqqət mərkəzindədir

Azərbaycan xalqının ümummilli lideri, görkəmli dövlət xadimi Heydər Əliyevin zəngin nəzəri irsində və fəaliyyətində təhsil məsələləri xüsusi yer tutur. Dahi rəhbər deyirdi: ***"Hər bir dövlət əgər istəyirsə ki, öz ölkəsinin inkişafını təmin etsin, öz millətinin elmini, mədəniyyətini dünya standartlarına çatdırsın, o mütləq, hər şeydən çox, təhsilə fikir verməlidir, təhsilin inkişafına səy göstərməlidir, təhsil üçün bütün imkanları yaratmalıdır".***

Ulu öndərimiz həm təhsilin məzmunu, mahiyyəti, məqsədləri, səmərəli təşkili, müəllim əməyinin şərəfi, şagirdlərin və tələbələrin vəzifələri barədə dəyərli fikirlər söyləmiş, həm də Azərbaycan təhsilinin hərtərəfli yüksəlişi qayğısına qalmış, illər boyu bu sahədə böyük inkişafa rəvac verən sistemli tədbirlər həyata keçirmişdir. İstər Azərbaycana birinci, istərsə də ikinci rəhbərliyi dövründə ümummilli lider daim təhsilə, tərbiyəyə strateji sahə kimi baxmış, Vətənin, xalqın tərəqqisində onların roluna yüksək qiymət vermişdir. ***"Təhsil sahəsi xalqımızın bu günü, millətimizin, dövlətimizin gələcəyi üçün ən vacib bir sahədir"***, – deyən müdrik rəhbər Azərbaycan təhsilinin inkişafı naminə son dərəcə böyük işlər görmüşdür.

Görkəmli dövlət xadiminin ölkəmizə rəhbərliyinin birinci dövründə əldə etdiyi mühüm tarixi nailiyyətlərdən biri də milli kadr potensialının, o cümlədən ehtiyac duyulan ixtisaslar üzrə mütəxəssis kontingentinin yaradılmasıdır. Bu məqsədi uğurla həyata keçirmək üçün ulu öndərimiz hər il azərbaycanlı gənclərin təhsil almaq üçün keçmiş SSRİ-nin nüfuzlu ali məktəblərinə göndərilməsi ənənəsinin əsasını qoymuşdur. Həmin dövrdə SSRİ-nin 170 qabaqcıl ali təhsil ocağına 15 minə yaxın gənc göndərilmiş, hər il xaricə 800 tələbə yola salınmışdır.

Müstəqillik illərində də Azərbaycanda təhsilin inkişafı ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. 1993-cü ildən başlayaraq təhsil sahəsində uğurlu islahatlar aparılmış, ali təhsil müəssisələrinin şəbəkəsi genişləndirilmiş, müasir tələblərə cavab verən təhsil ocaqları tikilib istifadəyə verilmişdir.

Bu gün təhsil siyasəti görkəmli dövlət xadiminin təməlini qoyduğu, möhkəmləndirdiyi etibarlı zəmin üzərində davam və inkişaf etdirilir. Heydər Əliyev siyasi kursunun layiqli davamçısı Azərbaycan Prezidenti cənab İlham Əliyevin böyük səyləri sayəsində təhsil Azərbaycanın davamlı inkişaf strategiyasının mühüm istiqamətlərindən birinə çevrilmişdir.

Muxtar respublikamızda da bu istiqamətdə görülən işlər, həyata keçirilən təqdirəlayiq tədbirlər hər birimizə fəxarət hissi yaşadır. Son illərdə muxtar respublikada yüzlərlə orta məktəb binası tikilmiş və ya əsaslı şəkildə yenidən qurulmuşdur. Ümumtəhsil məktəblərində sürətli internetə çıxışı olan 5337 kompüter və 600-dən artıq elektron lövhə quraşdırılmış, şagirdlərin istifadəsinə zəngin fonda malik kitabxanalar, laboratoriyalar və fənn kabinələri verilmişdir.

Bu tədbirlərdən muxtar respublikanın ali məktəbləri də bəhrələnib. Çalışdığım Naxçıvan Müəllimlər İnstitutuna da muxtar respublikada təhsilin inkişafına göstərilən qayğıdan pay düşüb. Belə ki, cari il may ayının 16-da ölkə başçısının iştirakı ilə institutun yenidən qurulmuş binası istifadəyə verilib. Altı mərtəbədən ibarət olan bu ali təhsil ocağında, ümumilikdə, 43 auditoriya, o cümlədən 4 kompüter otağı, 16 elektron lövhəli auditoriya, kitabxana və oxu, eləcə də elektron oxu zalları, rəngkarlıq və heykəltəraşlıq emalatxanaları və bir sıra





fənn kabinələri üçün tədris fondları müəllim və tələbələrin ixtiyarına verilib. Təsviri incəsənət, coğrafiya, musiqi, mülki müdafiə, tibb, Azərbaycan dili, ali riyaziyyat və informatika, həyat bilgisi, anatomiya və digər fənn kabinələri tələbələrin biliklərinin artırılması üçün bütün zəruri inventarla təchiz edilib. Binada Azərbaycan ali təhsilində ilk dəfə olaraq professor-müəllim heyəti üçün 3 fərdi məsləhət otağı və psixoloji xidmət laboratoriyası yaradılıb. Binada 132 və 20 yerlik iclas zalları da var. Bu zallarda təhsil müəssisəsinin həyatında baş verən əlamətdar hadisələrlə bağlı müxtəlif tədbirlər keçirmək mümkündür. Yeni bina kollektivin məsuliyyət hissini daha da artırıb. Qarşıya qoyulan vəzifələr, yaradılan şərait şərəfli bir işi yerinə yetirən biz müəllimlərə əlavə stimul verib. Bu da ixtisaslı kadr hazırlığında başlıca amillərdən biridir.

Təhsilə göstərilən davamlı qayğının və müasir yanaşmanın nəticəsidir ki, tədrisin keyfiyyət göstəriciləri xeyli yüksəlmişdir. Hər il ali məktəbə qəbul olunanların və yüksək bal toplayanların sayının artması da bunu bir daha təsdiq edir.

Muxtar respublikada təhsilə göstərilən dövlət qayğısının və yaradılan müasir şəraitin nəticəsidir ki, ümumtəhsil məktəblərinin məzunları həm buraxılış imtahanlarında, həm də ali və orta ixtisas təhsili müəssisələrinə qəbul imtahanlarında yüksək nəticələr əldə edirlər. 2017-2018-ci tədris ili üzrə ümumtəhsil məktəblərini 2803 məzun bitirmişdir. Yüksək bal toplayan abituriyentlərin keyfiyyət göstəricisində əvvəlki illə müqayisədə artım olmuşdur. Belə ki, ötən tədris ilində 600-700 intervalında nəticə göstərənlərin sayı 30 faiz artaraq 77 nəfərdən 100-ə, 500-600 intervalında nəticə göstərənlərin sayı isə artaraq 212-dən 231-ə yüksəlmişdir. Həmçinin əvvəlki ildə 500-700 arası bal toplayan məzunlardan 165-i muxtar respublikada fəaliyyət göstərən ali məktəblərdə təhsil almağa üstünlük vermişlərsə, cari ildə bu rəqəm 182 olmuşdur.

Hər il yüksək bal toplayan məzunlarla Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin ənənəyə çevrilən görüşü də muxtar respublikada təhsilə göstərilən böyük qayğı olmaqla yanaşı, həm də gəncləri təhsildə böyük uğurlar qazanmağa səsləyir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri avqust ayının 20-də tələbələrlə keçirdiyi görüşdə demişdir: ***"Dövlətin məqsədi ondan ibarətdir ki, yaradılmış müasir təhsil şəraitindən istifadə edən gənclər düzgün həyat yolu seçsinlər. Çünki yalnız hərtərəfli təhsil alan, peşə öyrənən, özünü ölkəsinin gələcəyinə hazırlayan gənclər dövlətçiliyimizin və müstəqilliyimizin dayağı ola bilərlər".***

Dövlətimiz hər zaman müəllimlərin əməyini, qabaqcıl təhsil müəssisələrinin əldə etdiyi müsbət nəticələri yüksək qiymətləndirir, onları ali təltiflərə layiq görür. Ən ucqar dağ kəndlərində belə, müasir memarlıq üslubunda məktəb binalarının tikilməsi, onların hər cür maddi-texniki baza ilə təmin olunmasının nəticəsidir ki, ali məktəbləri yenicə bitirmiş kadrlar da heç tərəddüd etmədən bu təhsil ocaqlarında pedaqoji fəaliyyətə başlayırlar. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı ilə bilik və bacarıqları qiymətləndirilmiş müəllimlərin əməkhaqlarının artırılması təhsilə, təhsil işçilərinə göstərilən qayğının bariz nümunəsidir.

*Bu gün davamlı olaraq təhsil sahəsində islahatlar həyata keçirilməkdədir. Bütün bunlar bir daha əmin olmağa əsas verir ki, müasir Azərbaycan təhsili özünün zəngin mütərəqqi ənənələrinə, milli-mənəvi və ümumbəşəri dəyərlərə, beynəlxalq təcrübəyə əsaslanaraq daha da inkişaf edəcəkdir. Çünki qazanılan bütün nailiyyətlər məhz Heydər Əliyev ideyalarından güc alır.*

**Qızıltac ŞAHBAZOVA**
***Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi,***
***Naxçıvan Müəllimlər İnstitutunun dosenti***

***Azərbaycan müstəqilliyinə qovuşduqdan sonra qonşu Şərq və Avropa ölkələrindən Naxçıvana gələn çoxsaylı qonaqlar ölkəmizdə tarix və mədəniyyət abidələrinə göstərilən yüksək diqqət və qayğının şahidi olurlar. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun "Naxçıvan Muxtar Respublikası ərazisindəki tarix və mədəniyyət abidələrinin qorunması və pasportlaşması işinin təşkili haqqında" 2005-ci il 6 dekabr tarixli Sərəncamına uyğun olaraq muxtar respublika ərazisində 1200-dən artıq tarix və mədəniyyət abidəsi qeydə alınıb. Həmin abidələr tədqiqata cəlb edilib, onlarla abidənin təmir və bərpa işləri müvəffəqiyyətlə başa çatdırılıb.***

*Axtarışlar, tapıntılar*

## Duzdağda və Kültəpə ətrafında yeni arxeoloji tədqiqatlar

Bu il Duzdağ mədənləri tədqiq edilib, Erkən Tunc dövrünə aid əmək alətləri və keramika məmulatı aşkar olunub. Daş alətlərin keramikanın yayıldığı zonalar üzrə bölüşdürülməsi göstərir ki, bu zonalar başlıca olaraq Son Eneolit və Erkən Tunc dövrlərinə aid keramikanın konsentrasiya olunduğu ərazilər ilə uyğun gəlir. Bu faktlar daş alətlərin daha çox tarixəqədərki dövrün son mərhələsində istifadə olunduğunu ehtimal etməyə imkan verir. Aparılan araşdırmalar zamanı qədim mədən sənayesinin infrastrukturları və dünyanın ən qədim duz mədənlərinin Naxçıvan Duzdağında olduğu müəyyənləşdirilib.

Tədqiqata cəlb edilən abidələrin bir qrupu qədim Kültəpə yaşayış yeri ətrafındadır. Azərbaycan arxeologiyasında Eneolit abidəsi kimi tanınan bu yaşayış yerində qazıntı sahəsində 2018-ci ildə aparılan tədqiqatlar xam torpağa çatana qədər davam etdirilib, Kültəpənin Neolit dövrünə aid abidə olduğu tarixi-arxeoloji əsaslarla tam dəqiqləşdirilib. Bu il, həmçinin I Kültəpə yaşayış yeri ətrafında 2010-2013-cü illərdə aparılan arxeoloji araşdırmalar zamanı aşkar olunan Eneolit dövrü yaşayış yerlərinin tədqiqi də davam etdirilib. Tədqiqatlar göstərir ki, Kültəpə və onun ətrafında yaşayan insanlar əkinçiliklə və köçmə maldarlıqla məşğul olublar. Köçmə maldarlıq insanların müxtəlif faydalı qazıntılar, o cümlədən mislə tanışlığına gətirib çıxarıb. Kültəpə ətrafındakı abidələrin tədqiqi ölkəmizin qədim sakinlərinin miqrasiyasının arealını, onların qədim Şərq ölkələri ilə iqtisadi-mədəni əlaqələrini öyrənməyə imkan verir.

Kültəpə yaşayış yerində və onun ətrafında aparılan araşdırmalar iqlim dəyişiklikləri ilə əlaqədar qədim insanların yaşayış yerlərini dəyişməyə məcbur olduğunu göstərir. I Kültəpə yaşayış yerində həyat eramızdan əvvəl VII minilliyin ortalarından başlayaraq VI minillikboyu davam etsə də, eramızdan əvvəl V minillikdə burada həyat kəsilmişdir. Kültəpədən tapılan bəzi keramika məmulatları eramızdan əvvəl V minillikdə burada həyatın epizodik xarakter daşıdığını, daim məskunlaşma olmadığını göstərir. Bununla belə məlum olur ki, eramızdan əvvəl V minilliyin birinci yarısında Kültəpə ətrafında yaşayış davam edib. Uzunoba, Uçan Ağıl və Naxçıvantəpə yaşayış yerlərində aparılan araşdırmalar zamanı eramızdan əvvəl V minilliyin birinci yarısına aid maddi-mədəniyyət nümunələri əldə edilib. Sirabçay vadisində yerləşən Uçan Ağıl, Naxçıvançay vadisində yerləşən Uzunoba və Naxçıvantəpə yaşayış yerlərinin araşdırılması eramızdan əvvəl V minilliyin əvvəllərində qədim insanların çay vadilərinə daha yaxın ərazidə məskunlaşdığını göstərir ki, bu da iqlim dəyişilmələri, daha doğrusu, quraq iqlimlə bağlı ola bilərdi.

Yaşayış yerlərinin tədqiqinə əsasən demək olar ki, uzun müddət davam edən quraqlıq mülayim və yağmurlu iqlimlə əvəz olunub, daşqınlar baş verib. Bəzi yaşayış yerlərinin üzərinin qalın lil qatı ilə örtülməsi, vadidəki yaşayış yerlərində həyatın kəsilməsinə səbəb də böyük ehtimalla bu iqlim dəyişikliyi olub.

I Kültəpə və onun ətrafında yerləşən Uzunoba, Uçan Ağıl və Naxçıvantəpə yaşayış yerlərinin tədqiqi Cənubi Qafqazın Son Neolit və Son Eneolit mədəniyyətləri arasındakı boşluğu doldurmağa imkan verir. Belə ki, indiyədək Cənubi Qafqazda aparılan araşdırmalar zamanı Son Neolit təbəqəsinin üzərində Son Eneolit təbəqəsinin olduğu müəyyən edilib. Ümumiyyətlə, eramızdan əvvəl V minilliyin birinci yarısı ilə tarixlənən abidələr Cənubi Qafqazda indiyədək aşkar olunmayıb. 2016-cı ildə I Kültəpədə aparılan araşdırmalar zamanı Son Neolit təbəqəsində Son Eneolit qəbirlərinin aşkar olunması eramızdan əvvəl IV minilliyin əvvəlində bu yaşayış yerindən qəbiristanlıq kimi istifadə edildiyini göstərir.

Naxçıvançay vadisində yerləşən Naxçıvantəpə abidəsinin araşdırılması Naxçıvanın Dalma təpə mədəniyyətinin əsas mərkəzlərindən biri olduğunu göstərir. Naxçıvantəpə abidəsinin tədqiqi, həmçinin Mil və Qarabağ düzlərindəki mədəniyyətlərin mənsubiyyət və dövrünü müəyyən etmək üçün əhəmiyyətli oldu. Bu il, həmçinin Uçan Ağıl yaşayış yerində tədqiqatlar davam etdirilib. Bu yaşayış yeri Araz çayı vadisini Sirab dağlarının ətəkləri ilə birləşdirən dərənin sonundakı burunda yerləşir. Aparılan arxeoloji qazıntılar zamanı Eneolit və Erkən Tunc dövrlərinə aid keramika məmulatı aşkar olunub. Uçan Ağıl yaşayış yerində tədqiqatlar zamanı Eneolit dövrünə aid ocağın ətrafından mis filizinin qalıqları və mədənçilik alətinin aşkar olunması bu yaşayış yerinin köçmə maldarlıq və mədənçiliklə məşğul olan köçərilər tərəfindən məskunlaşdırıldığını göstərən faktlardandır. Məlum olduğu kimi, mis filizinin qalıqları və mədənçilik alətləri Zirincli yaşayış yerinin tədqiqi zamanı



Duzdağda arxeoloji araşdırmalar



Uçan Ağıl yaşayış yeri

da aşkar edilmişdi. Ümumiyyətlə, Sirab ətrafındakı abidələrdə mədəni təbəqənin az yığılması, mis filizi qalıqlarının tez-tez tapılması, insanların mövsümi həyat tərzi keçirdiyini, mədənçiliyin onların həyatında mühüm yer tutduğunu göstərir. Uçan Ağıldan aşkar olunan bəzi keramika parçalarında I Kültəpə üçün xarakterik olan texnoloji xüsusiyyətlərin izlənməsi Eneolit mədəniyyətinin Son Neolit mədəniyyəti əsasında inkişaf etdiyini göstərir.



Naxçıvantəpə yaşayış yeri

Bu il Kültəpə və onun ətrafında aparılan araşdırmalar ulu əcdadlarımızın həyat tərzini, onların Cənubi Qafqaz və Yaxın Şərq regionundakı hərəkət istiqamətlərini müəyyən etməyə imkan verib. Məlum olduğu kimi, Urmiya hövzəsindəki obsidianların 90 faizi Zəngəzurdan aparılıb. Kültəpə sakinləri isə başlıca olaraq Göyçə və Zəngəzur obsidianından istifadə ediblər. Sirabçay abidələrinin bir qismində Göyçə, digər qismində isə Zəngəzur obsidianı üstünlük təşkil edir. Şahbuz rayonunda yerləşən Sələsüz, Dərə Şahbuz, Kolanı və digər abidələrdən aşkar olunan obsidianların tədqiqi onların başlıca olaraq Zəngəzur yataqlarından gətirildiyini göstərir. Bu fakt Zəngəzur obsidianının Naxçıvandan keçərək Urmiya hövzəsinə aparıldığını təsdiqləyir.

Kültəpə ətrafında məskunlaşan qədim insanlar Zəngəzur və Dərələyəz dağlarındakı faydalı qazıntılardan yararlandığını Göyçə və Urmiya hövzələri, Mil və Qarabağ düzlərinin daxil olduğu böyük coğrafi məkanda yaşayan insanlar arasında iqtisadi və mədəni əlaqələrin olduğunu deməyə əsas verir. Yaşayış yerinin müxtəlif təbəqələrindən mis filizinin minerallarının tapılması qədim Kültəpə sakinlərinin ətraf aləmlə, o cümlədən misin mineralları ilə tanış olduğunu göstərir. I Kültəpə, Uçan Ağıl, Zirincli, Ovçular təpəsi kimi yaşayış yerlərindən mis filizinin və mineralların tapılması Naxçıvanın Cənubi Qafqazda ən qədim metallurgiya mərkəzlərindən biri olduğunu deməyə əsas verir. Ovçular təpəsindən körük ucluğunun, Zirinclidən isə saxsı qəlibin tapılması, eramızdan əvvəl V minillikdə Naxçıvanda metal emalının mənimsənildiyini sübut edir. İlk tədqiqatlar Naxçıvandakı mis yataqlarının qədim insanlar tərəfindən istifadə olunduğunu təsdiqləyir. Qədim mis, qurğuşun alətlərin mis yataqları ilə qarşılıqlı analizi Naxçıvanın qədim metallurgiyasının yerli xammala əsaslandığını deməyə imkan verir.

I Kültəpə yaşayış yeri və onun ətrafında aparılan araşdırmalar Naxçıvanın qədim sakinlərinin Zəngəzur və Dərələyəz sıra dağlarındakı xammal mənbələrindən, xüsusilə obsidian və mis yataqlarından istifadə etdiyini göstərir. Bu xammal mənbələrinə gedən yolları müəyyənləşdirmək üçün 2018-ci ilin avqustunda Naxçıvan Muxtar Respublikasının müxtəlif rayonlarında, xüsusilə Babək, Culfa və Şahbuz rayonları ərazisində kəşfiyyat xarakterli araşdırmalar da aparılıb. Araşdırmaların əsas məqsədi, yuxarıda da qeyd etdiyimiz kimi, qədim insanların istifadə etdiyi metal, xüsusilə mis filizi, obsidian yataqlarını və köç yollarını müəyyənləşdirməkdən ibarət olub.

Qədim köç yollarını müəyyənləşdirmək üçün etnoqrafik araşdırmalar da aparılıb, Eneolit abidələrindən aşkar olunan yarımqazmatipli evlərdən indi də istifadə olunduğu müəyyən edilib. Culfa rayonunda Milax kəndi yaxınlığında, Zoğalaçay vadisində, Şahbuz rayonunda isə Yuxarı Qışlaq kəndində yarımqazmatipli evlər qeydə alınaraq tədqiq edilib. Naxçıvan maldarlarının köç yollarını müəyyən etmək üçün Şahbuz rayonunun Keçili, Biçənək, Yuxarı Qışlaq və Gömür kəndlərinin ərazilərində də araşdırmalar aparılıb. Araşdırmalar zamanı Yuxarı Qışlaqdakı yurd yerlərindən və Qanlıgöl yaylaqlarından xeyli obsidian parçaları aşkar olunub.

Həmin tapıntılar qədim tayfaların köç yollarının istiqamətini müəyyən etməyə imkan verib, ulu əcdadlarımızın Culfa və Şahbuz rayonlarındakı keçidlər vasitəsilə Zəngəzur dağlarının xammal yataqları müəyyənləşdirilib. Arxeoloji araşdırmalara əsaslanaraq demək olar ki, qədim dövrə aid yaşayış yerləri Zəngəzur dağlarındakı xammal mənbələrinə gedən yollar üzərində salınıb. Şübhəsiz ki, Neolit və Eneolit dövrlərində qədim əkinçi-maldar tayfaların istifadə etdikləri əsas xammal mənbəyi Batabat yaxınlığında yerləşən obsidian yataqları olub.

***2018-ci ildə aparılan araşdırmalar müstəqilliyimizin əvvəlki illərindəki tədqiqatları da dəyərləndirməyə imkan verib. Son illər Naxçıvan Muxtar Respublikasında AMEA Naxçıvan Bölməsinin təşkilatçılığı ilə aparılan arxeoloji tədqiqatlar nəinki Azərbaycan arxeologiyasına, bütövlükdə, Yaxın Şərq və Cənubi Qafqaz arxeologiyasına böyük töhfələr verib və yeniliklər gətirib. Ümid edirik ki, muxtar respublika rəhbərinin tarix və mədəniyyət abidələrimizin tədqiqinə göstərdiyi yüksək diqqət və qayğı gələcəkdə yeni elmi nəticələrin əldə edilməsinə imkan verəcəkdir.***

**Vəli BAXŞƏLİYEV**
***Naxçıvan arxeoloji ekspedisiyasının rəisi, AMEA-nın müxbir üzvü***

## "KazBuild" sərgisində Naxçıvan məhsulları nümayiş olunub

İqtisadiyyat Nazirliyinin dəstəyi, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun təşkilatçılığı ilə Azərbaycanın inşaat və tikinti materialları məhsulları 4-6 sentyabr tarixlərdə Qazaxıstanın Almatı şəhərində keçirilən "KazBuild" inşaat və tikinti materialları sərgisində nümayiş olunub. Bu il sərgidə 25 ölkədən 288 inşaat şirkəti iştirak edib.




"KazBuild 2018" sərgisində Azərbaycandan 14 şirkət iştirak edib. Sərgidə muxtar respublikada fəaliyyət göstərən "Cahan Pen" Məhdud Məsuliyyətli Cəmiyyətinin də iştirakı təmin edilib. Müəssisə tərəfindən istehsal edilən panel və alüminium radiatorlar, qapı-pəncərə profilləri, müxtəlifölçülü plastik borular və fitinqlər sərgidə nümayiş etdirilib.

Xarici şirkətlərin və sərgi ziyarətçilərinin böyük marağına səbəb olan Azərbaycan məhsulları "Ən yaxşı debüt" mükafatına layiq görülüb.

Sərgi çərçivəsində Azərbaycanın inşaat və tikinti şirkətlərinin nümayəndələri xarici şirkətlərin təmsilçiləri ilə görüşlər keçirib, potensial müştərilərlə məhsulların ixracına dair müzakirələr aparıb, əhəmiyyətli nəticələr əldə edilib.

Qeyd edək ki, "KazBuild 2018" sərgisi Azərbaycan inşaat və tikinti materialları məhsullarının "Made in Azerbaijan" vahid ölkə stendində təqdim olunduğu ilk beynəlxalq sərgidir.

***Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin mətbuat xidməti***

*Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondunun təşkilatçılığı ilə Gənclər və İdman Nazirliyi, Gənclər Fondu, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı, Həmkarlar İttifaqları*

## İdmançılar üçün növbəti "Yay məktəbi" təşkil edilib

*Şurası və idman federasiyaları tərəfindən Ağbulaq İstirahət Mərkəzində növbəti "Yay məktəbi" təşkil edilib.*

Məktəbin budəfəki qonaqları muxtar respublikada fəaliyyət göstərən idman federasiyalarının idmançıları olub. Keçirilən "Yay məktəbi" beşgünlük istirahət proqramına uyğun olaraq təşkil edilib.

Ağbulaq İstirahət Mərkəzində qonaqları təşkilatçı qurumların əməkdaşları qarşılayıblar. Tanışlıqdan sonra idmançılar nahar ediblər. Daha sonra vətənpərvərlik mövzusunda film nümayiş etdirilib. İstirahətin ilk günü şahmat və stolüstü tennis idman növləri üzrə yarışlar da keçirilib.

Növbəti günə səhər gimnastikası ilə başlayan idmançılar əyləncəli oyunlarda iştirak edib, Ağbulaq kəndi ərazisindəki təbiət abidələri ilə tanış olaraq "Ağbulaq" bulağına yürüş ediblər. Sonra idmançılar mərkəzin stadionunda mini-futbol qarşılaşmasında qüvvələrini sınayıblar. Günün sonunda isə vətənpərvərlik mövzusunda mahnılar dinləyiblər.



Gənc idmançılar Aprel döyüşlərindən bəhs edən "Aprel döyüşləri tariximizin şanlı səhifəsidir", eyni zamanda şəhid Qabil Orucəliyevə həsr olunmuş sənədli filmlərə baxıblar.

Proqrama uyğun olaraq Şahbuz Rayon Mədəniyyət Şöbəsinin musiqi kollektivi gənclər qarşısında maraqlı konsert proqramı ilə çıxış edib.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

*Bu gün Naxçıvan Muxtar Respublikasında gənclərin idmana cəlbi, onlara sağlam həyat tərzinin aşılanması diqqət mərkəzində saxlanılır. Bu işlərin davamlı olması, idmanın maddi-texniki bazasının gücləndirilməsi, idman qurğuları və obyektlərinin tikilib istifadəyə verilməsi isə gənclərin bədən tərbiyəsi və idmana marağını gündən-günə artırır. Naxçıvanda idman siyasətinin düzgün qurulduğunu bu sahədə qazanılmış nəticələr də təsdiqləyir – diyarımızda beynəlxalq səviyyəli yarışlar təşkil olunur, idmançılarımız hər il müxtəlif idman növləri üzrə keçirilən Avropa və dünya çempionatlarında uğurlu nəticələr göstərirlər.*





# Federasiyalar yeni idman mövsümünə necə hazırlaşırlar

Son 20 ildə muxtar respublikada idmanın inkişaf etdirilməsi məqsədilə ayrı-ayrı idman növləri üzrə 12 federasiya yaradılıb. Federasiyalar yarandığı gündən etibarən Naxçıvanın idman ənənələrini layiqincə təmsil edir, müxtəlif turnirlərdə uğurlu çıxışlarla göstərilən diqqət və qayğının əbəs yerə olmadığını sübut edirlər. Bəs federasiyalar növbəti idman mövsümünə necə hazırlaşırlar? Sualı federasiyaların sədr müavinləri belə cavablandırdı.

Şahmatçılarımız yay ərzində Türkiyədə keçirilən beynəlxalq turnirlərdə iştirak ediblər. Federasiyanın sədr müavini Emin Hacıyev bizimlə söhbətində dedi ki, zəka sahiblərimizi qarşıda bir neçə turnir gözləyir. Xüsusi olaraq isə hər hansı təlim-məşq toplanışı keçirməmişik. Etiraf edək ki, yaradılan şəraitdən səmərəli istifadə edilməyib və bir sıra nöqsanlara yol verilib. Beynəlxalq və ölkədaxili yarışlarda muxtar respublikanın bütün rayonlarının iştirakı arzuolunan səviyyədə olmayıb. Uzun müddətdir ki, açıq birinciliklər, təlim-məşq toplanışları keçirilmir. Bunlar olmadıqda isə istedadlı gənc idmançıları üzə çıxarmaq mümkün deyil. Federasiyaya idmançılara daha yaxın olan və onlara qayğı ilə yanaşan yeni sədr seçildikdən sonra bu idman növünün muxtar respublikada daha geniş yayılacağına, kütləvi hala gələcəyinə əminik.

Naxçıvan Muxtar Respublikası Karate-do Federasiyası məşqlərə ara vermədən yeni mövsümə hazırlaşır. Bu müddət ərzində federasiya üzvləri bir sıra beynəlxalq turnirlərdə iştirak ediblər. Federasiyanın sədr müavini bizimlə söhbətində keçirilən təlim-məşqlər barədə bunları dedi: "Yayın ilk ayından etibarən idmançılarımızla təlim-məşqlərə başlamışıq. Məqsədimiz qarşıdakı yarışlarda idmançıların fiziki göstəricilərini daha da yaxşılaşdırmaqdır. Bakı şəhərindən dəvət olunmuş məşqçi-müəllim tərəfindən təlim-məşq prosesi keçirilib və kəmər imtahanları olub. Eyni zamanda qız bölməmizə müraciət edənlərin sayı çoxalıb".





Naxçıvan Muxtar Respublikası Boks Federasiyası xüsusi olaraq təlim-məşq toplanışı keçirməyib. Federasiyanın sədr müavini Məmmədcəfər Əliyev bildirdi ki, növbəti aydan etibarən bir neçə yarış təşkil ediləcək. Bu yarışlardan öncə istedadlı dəri əlcək sahibləri toplanacaq və ümumi halda təlim-məşq toplanışı keçiriləcək. Həmçinin toplanışlar zamanı yarışlarda hansı boksçuların mübarizə aparacağı məlum olacaq.

Güləş Federasiyası da hər hansı xüsusi təlim-məşq toplanışı keçirməyi nəzərdə tutmayıb. Buna səbəb isə güləşçilərin məşqlərə ara verməməsidir. Federasiyanın sədr müavini Faiq İsgəndərovun dediklərindən: "Xüsusi bir təlim-məşq toplanışı olmayacaq. Çünki idmançılarımız daim məşqlərə qatılıblar. Adətən, yarışlardan öncə təlim-məşq toplanışı keçiririk. Yay aylarında idmançılara fiziki yüklələr daha çox olur. Səbəbi onların qarşıdakı turnirlərdə göstəricilərinin yaxşı olması ilə əlaqədardır. Cüdo üzrə isə seminar və təlim-məşq toplanışı keçirilir. Belə ki, Bakıdan dəvət olunmuş Tərlan Poladov və Vüsal Cəfərov tərəfindən məşqçi-müəllimlər və idmançılar üçün təlim-məşq prosesi təşkil edilib".

Kikboksinqçilərimiz də mövsümə ciddi hazırlaşırlar. Federasiyadan verilən məlumata görə, idmançılar hər gün müəyyən edilmiş qruplarda məşq proseslərini davam etdirirlər. Ötən il olduğu kimi Bakıdan mütəxəssislər dəvət edilir və onlar bu idman növü ilə məşğul olmaq istəyənlərin püxtələşməsində müstəsna rol oynayırlar.

Naxçıvan Muxtar Respublikasının voleybol komandası hazırda Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksində məşqlərini davam etdirir. Bu barədə federasiyanın sədr müavini Aydın Mirzəyev məlumat verdi.

Naxçıvan Muxtar Respublikası Basketbol Federasiyası isə təlim-məşq toplanışı keçirməyəcək. Qurumun sədr müavini Abdulla Hüseynov bildirdi ki, federasiya olaraq yalnız yoldaşlıq görüşləri təşkil edilib. Həmin görüşlər təkcə Naxçıvan şəhərində deyil, rayonlarda da keçirilir. Növbəti belə görüş oktyabr ayında olacaq.

Futbol Federasiyasının futbol üzrə keçirilən Naxçıvan Muxtar Respublika çempionatında iştirak edəcək komandaların bəziləri hazırlıqlara başlayıblar və yoldaşlıq görüşlərində qüvvələrini sınayırlar.

Yüngül Atletika Federasiyasının planında xüsusi təlim-məşq toplanışı keçirmək yoxdur. Federasiyanın sədr müavini İntiqam Rəhimov bildirdi ki, hər zaman olduğu kimi, bu yay da plana uyğun olaraq məşqlər keçirilir, idmançılar yarışlara hazırlanır. Məqsəd isə istedadlı gəncləri üzə çıxarmaq və ölkə birinciliklərinə tam hazır formada yollamaqdır.

Naxçıvan Muxtar Respublikası Atıcılıq Federasiyasının sədr müavini Fərhad Əliyev qurumun gördüyü işlərdən danışdı: "Atıcılıq Mərkəzində idmançılar daim məşq edirlər, burada yarışlar, turnirlər keçirilir. Qızların da bu idman növünə cəlbi üçün çalışırıq. Hazırda 450-dən çox idmançımız var və onlar arasında istedadlıları üzə çıxarmaq üçün hər həftə stend, tir və ox atıcılığı üzrə təlimlər keçirilir".

Hava və Ekstremal İdman Növləri Federasiyasının iş planında da təlim-məşq toplanışı var. Federasiyanın sədr müavini Azər Məmmədov qeyd etdi ki, keçirdiyimiz turnirlər, adətən, rayonlarda təşkil olunur. Yarışlardan sonra təlim-məşq toplanışı nəzərdə tutulur. Bu, sentyabr ayının sonlarına təsadüf edəcək.

Paralimpiya Federasiyasında isə keçirilən yarışlarla yanaşı, təlim-məşq toplanışı da olub. Belə ki, federasiyanın dəvəti ilə aprel ayında məşqçilər gəliblər. Federasiyanın sədr müavini Vüqar Məmmədov bildirdi ki, son üç ay ərzində idmançılar üçün təlim-məşqlər təşkil olunub. Belə ki, Naxçıvan şəhəri ilə yanaşı, Şərur və Sədərək rayonlarında üzgüçülük və stolüstü tennis növləri üzrə təlimlər keçirilib. Eyni zamanda fiziki imkanları məhdud uşaqlar üçün muxtar respublikanın bütün şəhər və rayonlarında qolbol idman növü üzrə məşqlər təşkil olunur.

Görülən işlər muxtar respublikada fəaliyyət göstərən federasiyaların qarşıya qoyulmuş vəzifələri hansı səviyyədə yerinə yetirdiklərinin göstəricisidir. Qarşıdakı idman mövsümündə əldə ediləcək nəticələr bunu bir daha ortaya qoyacaq.

✍ **Ceyhun MƏMMƏDOV**

---

*Yurdumuzun nemətləri*

# Dərdlərə dərman Ordubad zoğalı

*Naxçıvanda qədimdən becərilən nadir və qiymətli dərman bitkilərindən biri də zoğaldır. Kiçik ağac və ya kol bitkisi hesab olunan zoğalın becərilmə tarixi qədimdir. Deyilənə görə, Şahbuz və Culfa rayonlarının Keçili və Milax kəndlərinin sərhədində 100 il bundan əvvələ aid qədim yaşayış məntəqəsi – "Zoğala" adında bir kənd olub. Buna görə də ehtimal etmək olar ki, zoğalın muxtar respublikamızda becərilmə tarixi çox qədimlərə gedib çıxır. Bu gün daha çox Ordubad rayonunda becərilir.*

Bu bitki haqqında geniş məlumat almaq üçün Ordubad rayonunun Nüsnüs kənd sakini, bağban Yunis Hüseynovla görüşdük. O bildirdi ki, zoğal bitkisinə ölkəmizin Şəki-Zaqatala, Quba-Qusar zonalarında təsadüf olunsa da, muxtar respublikamızın bir çox yaşayış məntəqələrində, xüsusilə də Nüsnüs kəndində daha çox becərilir.

Müsahibim deyir ki, muxtar respublikamızda xırdameyvəli cır və irimeyvəli hibrid, sarı, armudu, qırmızı zoğal növləri daha geniş yayılıb. Hələ yarpaq açmamış fevral-mart aylarında çiçəkləyən zoğal bununla erkən yazın gəlişindən xəbər verir. Sarı çiçəkləri bir yerə toplanıb çətir kimi sallanan bitkinin meyvələri, əsasən, avqustun axırı və sentyabr ayının əvvəllərində yetişir. Meyvələri yumru, oval, silindrik formada, rəngi isə qırmızı, tünd-qırmızı, qara-qırmızı və bəzi formaları açıq-sarı rənglərdə olur. Meyvələri turş, turşaşirin və müxtəlif dərəcədə şirin dadır. Tam yetişməmiş meyvələr tərkibində aşı maddələri çox olduğuna görə ağızbüzücü xassəyə malikdir.



Ordubad şəhərində, eləcə də rayonun kəndlərində qırmızı zoğaldan daha çox istifadə edilir. Tərkibindəki vitaminlərin zənginliyinə, dadına görə bu növ digərlərindən fərqlənir. Onun yarpağı, qabığı və çəyirdəyindən bir çox xəstəliklərin müalicəsində istifadə edilir. Dərman bitkisinin meyvəsində limon, alma, kəhrəba turşuları, saxaroza, fruktoza, qlükoza, A, B, C, D, K vitaminləri və boyaqçılıqda işlənən aşı maddələri vardır.

Müsahibim vurğuladı ki, bitkini becərmək, bara salmaq vaxt və zəhmət tələb edir. Bir sıra kəndlərdə zoğalın peyvəst növlərini yetişdirirlər. Zoğalın artırılmasında ən sadə və asan üsul firqəndə (basdırma) hesab olunur. Bu üsul vasitəsilə cavan budaqlar oktyabr-noyabr aylarında yerə basdırılır, üstü torpaqla örtülür. Vaxtlı-vaxtında suvarıldıqdan sonra budaqlar inkişaf edir, kəsilir və köklü kiçik ting kimi başqa yerə köçürülür. Yarpaqları və çiçəkləri yüksək hərarətə və sərt şaxtalara dözümlü olan bu bitki 150-200 il yaşayır və bar verir.

Zoğalın təzə dərilmiş meyvələrindən xalq təbabətində geniş istifadə edilir. Belə ki, meyvədən alınan şirə şəkərli diabetdə ürək yanğısının qarşısını alır, çəyirdəkləri qovurulub toz halına salınaraq ishal, dizenteriya, babasil xəstəliklərində, qabıq və yarpağından hazırlanan dəmləmə və cövhər isə böyrək, qaraciyər xəstəliklərində təsirli dərman vasitəsi hesab olunur. Bundan başqa, zoğaldan şirə, mürəbbə, kompot, cem, püre, marmelad, kisel, sirop, jele, şərbət, spirtli içkilər, turşu, sirkə, lavaşa hazırlanır.

Zoğalın oduncağı sərt və keyfiyyətli olduğu üçün dülgərlikdə ən qiymətli material hesab edilir və ondan hazırlanan əlağacı ən dözümlü ağac sayılır. Sənətkarlar onun 100 illik gövdəsindən mebel, toxuculuq alətləri (eşmə aləti, məkik, masura, mil) hazırlayırlar.



Müsahibim onu da bildirdi ki, bu il zoğal ağacları keçən ilə nisbətən daha çox bar verib. Bir ağacdan 80-100 kiloqram zoğal dərilib. Bu hal onun qiymətinə də öz təsirini göstərib. Belə ki, əvvəllər kilosu 2-3 manat arasında dəyişən zoğalın qiyməti bu il ucuzdur.

Nüsnüs kəndinin digər sakini Şərqiyyə Salehova bildirir ki, zoğalın meyvələrindən təzə və qurudulmuş halda istifadə edilir. Meyvələr yetişdikcə turşuluğu azalır, şəkərliliyi artır. Zoğaldan mürəbbə hazırlamaq üçün onun tam yetişməmiş meyvələrindən istifadə edilir.

Müsahibim deyir ki, zoğal mürəbbəsi mürəbbələrin "şahı" sayılır və soyuqdəymənin ən kəsərli əlacıdır. Qışda qrip və qızdırma xəstəliyi olan insanlar zoğal mürəbbəsindən daha çox istifadə edirlər. Tərkibi C vitamini ilə zəngin olan bu mürəbbə mədədə, eləcə də qarında ağrı olduqda ağrıkəsici vasitə kimi işlədilir. Zoğal cemini alma meyvəsi ilə birlikdə hazırladıqda isə daha dadlı olur. Bunun üçün 3 kiloqram zoğala 2 kiloqram alma məti əlavə edilib üzərinə 700 qram şəkər tozu qatılır. Ocaqdan götürülüb soyudulduqdan sonra qablara yığılıb sərin yerdə saxlanılır. Bu qarışıq uşaqlar üçün zəngin vitamin mənbəyi hesab edilir. Zoğalın lavaşası isə ev qadınlarının mətbəxdə ən çox istifadə etdiyi qida məhsuludur. Onu hazırlamaq üçün tam yetkin meyvələr suda pörtülüb süzgəcdən keçirilir. Əldə edilən zoğal məti duzlanıb sinilərə yığılır və günəş altında qurudulur. Diş dibinin qanaması və vitamin çatışmazlığı olan insanlar üçün zoğal lavaşası çox faydalı hesab olunur. Çəyirdəyi çıxarılıb qurudulan zoğal meyvələri isə ilboyu istifadə edilir.

İnsan sağlamlığı üçün faydalı olan bir çox meyvə ağacları kimi, zoğal ağaclarına vaxtlı-vaxtında qulluq göstərmək, onların sayını artırmaq lazımdır.

✍ **Güntac ŞAHMƏMMƏDLİ**

**ŞƏRQ qapısı**

**Baş redaktor:** MEHRİBAN SULTANOVA

**Ünvan:** *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.*

*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

**Qeydiyyat №: 575**

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* **Muxtar Məmmədov**

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

**Tiraj: 1490. Sifariş № 655**